*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri № 5, 2026*
*Səh. 415-419*
*ISSN 2224-9257*

https://doi.org/10.62837/2026.5.415

**SEVINC İLQAR QIZI ŞIRINOVA**
Gəncə Dövlət Universiteti
**E-mail: sirinovasevinc2003@gmail.com**

# BƏDİİ ƏDƏBİYYATIMIZDA AZƏRBAYCAN BAYRAĞININ TƏRRƏNNÜMÜ

**XÜLASƏ**

Hər bir ölkənin tarixi və dövlətçilik ənənələri onun rəmzlərində, bayrağında, gerbində, himnində öz əksini tapıb. Bayraq, gerb və himn Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs simvollar, eyni zamanda millətin mövcudluğunun, dövlətin və xalqın milli kimliyinin ifadəsidir. Bu müqəddəs rəmzləri sevmək isə özlüyündə vətəni sevmək, milləti sevməkdir.

Ədəbiyyat tariximizdə "istiqlal şairi" kimi tanınan, Cümhuriyyət deyərkən adı hər kəsdən öncə xatırlanan, himnimizin müəllifi, ilk müstəqil dövlətimizin ideoloqlarından biri Əhməd Cavadın o dövrdə yazdığı şeirlər, "Azərbaycan bayrağına", "Azərbaycan ordusuna" istiqlal ruhunun əyani göstəriciisidir.

Azərbaycan ədəbiyyatşünaslığının patriarxlarından sayılan professor Yaşar Qarayev Əhməd Cavadın Cümhuriyyət dövrü poeziyasını təhlil edərkən belə fikri vurğulayır:

"Dövlət himninin mətni, həmçinin "Can Azərbaycan", "Al bayraq", "Azərbaycan bayrağına", "Qardaş", "Mən bulmuşam" həmin dövrün bədii sənədləridir".

Belə ki, bir dövlət olaraq yaratmaq, qurmaq istədiklərimiz, ideoloji baxımdan cümhuriyyətin bütün ruhu Əhməd Cavadın yaradıcılığında öz əksini tapıb. Üçrəngli bayrağımıza Cəfər Cabbarlı, Əbdülxaliq Cənnəti və başqaları böyük məhəbbətlə şeirlər həsr edərək onun tarixini, rənglərin mahiyyətini poetik şəkildə vəsf etmişlər. Azərbaycan Cumhuriyyətinin süqutu ilə bayrağımız Parlamentin üzərindən endirilsə də (1920), Məhəmməd Əmin Rəsulzadənin "Bir kərə yüksələn bayraq bir daha enməz" nidası həmişə könüllərdə, şeirlərdə yaşadı.

**Açar sözlər:** bayraq, ədəbiyyat, tərənnüm, yaradıcılıq, poeziya

**Sevinj İlgar Shirinova**

**ABSTRACT**

**THE GLORIFICATION OF THE AZERBAIJANI FLAG IN LITERATURE**

The history and traditions of statehood ofeach country are reflected in its symbols, flag, coat of arms, and anthem.The flag, coat of arms, and anthem are sacred symbols embodying the independence of the Azerbaijani state, as well as an expression of the existence of the nation and the national identity of the state and

people.And to love these sacred symbols is in itself to love the motherland, to love the nation.

In the history of our literature, Ahmad Javad, known as the "poet of independence", whose name is the first to come to mind when the Republic is mentioned, the author of our national anthem, and one of the ideologists of our first independent state, wrote poems during that period such as "Azerbaycan bayragina" and "Azerbaycan ordusuna", which stand as vivid expressions of the spirit of independence.

Professor Yashar Garayev, one of the patriarchs of Azerbaijani literary studies, emphasizes this opinion when analyzing the poetry of Ahmad Javad in the period of the Republic:

"The lyrics of the national anthem, as well as "Can Azerbaycan", "Al Bayraq", "Azerbaycan bayragina", "Qardas" and "Men bulmusam", are literary documents of that period".

Thus, everything we sought to create and build as a state, and the entire ideological spirit of the Republic, are reflected in Ahmad Javad's work Jafar Jabbarli, Abdulkhalig Jannati and others dedicated poems to our tricolor flag with great love and poetically glorified its history and the essence of colors. Although our flag was lowered from the Parliament building after the fall of the Azerbaijan Democratic Republic (1920), Mahammad Amin Rasulzade's call, "The flag once raised will never fall", continued to live on in hearts and in poetry.

**Keywords:** flag, literature, glorification, creature, poetry

**Севинж Ильгар Ширинова**

**АННОТАЦИЯ**

**ВОСПЕВАНИЕ АЗЕРБАЙДЖАНСКОГО ФЛАГА В НАШЕЙ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЕ**

История и традиции государственности каждой страны находят своё отражение в её символах – флаге, гербе и гимне. Флаг, герб и гимн являются священными символами, олицетворяющими независимость Азербайджанского государства, а также выражением существования нации, её государственной и национальной идентичности. Любовь к этим священным символам по своей сути означает любовь к Родине и народу.

В истории нашей литературы Ахмед Джавад, известный как «поэт независимости», имя которого в первую очередь вспоминается при упоминании Республики, автор государственного гимна и один из идеологов первого независимого государства, в своих стихотворениях того периода, «Азербайджанскому флагу», «Азербайджанской армии», наглядно выразил дух независимости.

Патриарх азербайджанского литературоведения, профессор Яшар Караев, анализируя поэзию Ахмеда Джавада периода Республики, подчёркивает следующую мысль: «Текст государственного гимна, а также произведения "CanAzərbaycan" (Джан Азербайджан»), "Albayraq" (Алый флаг), "Azərbaycan bayrağına" (Азербайджанскому флагу), "Qardaş" (Брат), "Mən bulmuşam" (Я нашёл) являются художественными документами той эпохи».

Таким образом, всё то, что стремилось создать и построить государство, а также весь идеологический дух Республики нашли отражение в творчестве Ахмеда Джавада. Азербайджанскому трёхцветному флагу такие поэты, как Джафар Джаббарлы, Абдулхалиг Джаннатии другие, посвящали свои произведения с большой любовью, поэтически воспевая его историю и символику цветов. Несмотря на то, что после падения Азербайджанской Демократической Республики в 1920 году флаг был снят со здания парламента, лозунг Мамед Эмин Расулзаде Однажды поднятый флаг никогда не будет спущен» всегда жил в сердцах и в поэзии.

**Ключевые слова:** флаг, литература, воспевание, творчество, поэзия

**Giriş.**

Məlumdur ki, ta qədim zamanlardan bəri bədii dil cəmiyyətdəki hadisələrə heç vəchlə laqeyd qalmamış, çeşidli zamanlarda onun bütün sahələrinə aid mövzularla bağlı yaradıcı fikir söylənmişdir. Bu baxımdan bədii dilimizdəki tərənnüm obyektlərindən biri də Azərbaycanın Dövlət bayrağıdır. Ən əsası, şüurumuzda, ürəyimizdə, hətta şeirimizdə belə "bayraq" deyilən bir anlayış yer alır.

Tarixdə də bayrağın sorağı ilkin dövrlərdən gəlir. Hələ "Kitabi-Dədə Qorqud" eposundan dövlətlərin bayrağa malik olması aydınlaşır. Bildiyimiz kimi, Oğuz elinin sərkərdəsi, bəylər bəyi Salur Qazan Şöklü Məliyin başını kəsərkən qardaşı Qaragünə düşmənin bayrağını qılınclayır. Bayrağın qılınclanması isə onu daşıyan dövlətin süqutu sayılırdı.

Bayrağa münasibət vətənə, xalqa, milli birliyə, dövlətçiliyə münasibət kimi bədii əsərlərin dilində özünəxas yer tutur, bədii söz və ifadələrlə öz tərənnümünü tapır. Bu yerdə ən önəmli məqam söz sənətkarlarının mötəbər dövlət rəmzinin ucalıq keyfiyyətini vəsf etməkdən yorulmaması, yüksək zövq və ifadə tərzi ilə bayrağı bədii baxımdan obrazlaşdırmasıdır.

**Əsas hissə.**

Bayraq mövzusunda yazan sənətkarların əsərlərinin diqqətlə araşdırılması nəticəsində bəlli olur ki, onu tərənnüm edənlər heç vaxt söz sarıdan kasadlıq çəkməyiblər. Qələm əhlinin leksikası dağ seli kimi daim çağlamış, möhtəşəm bir nəğmə şəklində ürəklərə dolub, ucaldıqca ucalıb, yeni söz və ifadələrlə zənginləşmişdir. Azərbaycan xalqının azadlıq carçılarından olan Əhməd Cavadın "Azərbaycan bayrağına" şeiri o baxımdan səciyyəvidir:

Türküstan yelləri öpüb alnını,

Söylüyor dərdini sana,bayrağım!
Üçrəngin əksini Quzğun dənizdən
Ərməğan yollasın yara,bayrağım! [2, s. 127]

Burada metaforik cizgilərlə canlı danışıq dilinin emosional xarakteri üzə çıxıb bədiiliyi daha da zənginləşdirmiş və üslubun səciyyəvi cəhəti kimi formalaşmışdır. Maraqlıdır ki, bayraq haqqında qələmə alınmış əsərlərdə diqqətin onun üzərindəki məlum rənglərə cəlb edilməsi də spesifik üslub çalarlarının formalaşmasına şərait yaratmışdır. Bəllidir ki, hər hansı bir çit, şal, ipək və parça çeşidləri müxtəlif növlərdə ola bilər. Lakin bayrağın rəngləri, şübhəsiz, adi rənglər deyil, onların rəmzi mənaları vardır. Bayraqdakı üç rəngin birləşməsi bir düsturun açılmasına rəvac verir.

Qayıların adı “Kitabi-Dədə Qorqud” dastanında da çəkilir. Qayılar tarixdə böyük nüfuz sahibi olan, möhtəşəm dövlət yaradan türk tayfalarıdır. Bir zamanlar Qayı türklərinin qurduğu dövlətin hökmdarı Şu idi. Qayı 24 oğuz boyundan biridir. “M.Kaşqarlı, Rəşidəddin və Əbül Qazi Bahadır xan bu boyu ən qədim, köklü, şərəfli, döyüşkən boylardan biri kimi göstərir” [3, s. 174].

Türk xalqlarının bayrağında əksər zamanlarda göy rəngdən istifadə halları da müşahidə edilir. Türklərin göy rəngə üstünlük vermələri haqqında tarixdə çoxsayda faktlar yer alır. Onu da deyək ki, islam dininə sitayiş edən türk xalqlarının tikdiyi abidələrin çoxu məhz göy rəngdə olmuşdur. Ümumiyyətlə, göy rəng qədim dövrlərdən Göy Tanrısına ehtiramı əks etdirir. Əski zamanlardan türk xalqları səmanın rəngini də simvol kimi qəbul etmişlər. Bu rəng bir sıra dövlətlərimizdə bayrağın başlıca rənglərindən hesab edilir.

Əli bəy Hüseynzadənin “Qırmızı qaranlıqlar içində yaşıl işıqlar” əsərində “yaşıl” deyəndə müsəlman ziyalıları anlaşılır. Xızır peyğəmbərin də yaşıl donlu olması haqqında təsəvvürlər məlumdur. Bu rəng Azərbaycanın VII yüzillikdən – islam dini yaranandan müsəlmanlığı qəbul etməsi, onun ərazisində yaranan dövlətlərdə islam dəyərlərinə ehtiram göstərilməsi ilə bilavasitə bağlıdır. Beləliklə, bayrağımızdakı yaşıl rəng islam mədəniyyətini özündə ehtiva edir.

Əhməd Cavad bayrağımızın sinvolik rənglərindən başqa, onun üzərindəki aypara və ulduzlara da yaradıcı münasibətini əks etdirib “gözəl pəri” adlandırdığı səkkiz guşəli ulduzun bayrağın qoynundakı Aya sığındığını həssaslıqla qeyd etmişdir:

Köksümdə tufanlar gəldim irəli,
Öpüm kölgən düşən mübarək yeri!
Allahın yıldızı, o gözəl pəri,
Sığınmış qoynunda Aya, bayrağım! [2, s. 127]

Bədii dildə Cəfər Cabbarlının “Azərbayca bayrağına” şeiri də maraqlı xüsusiyyətləri ilə diqqət çəkir. Müəllif əsərin əvvəlində, ikinci misrada bayrağımızın üç boyalı, üç mənalı olduğunu belə ifadə edirdi:

Buraxınız, seyr edəyim,

Düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı! [1, s. 63]

Bayrağın üzərindəki aypara türk xalqlarının rəmzidir. Səkkiz guşəli ulduzun mənasına gəlincə isə bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə əlaqələndirilir. Belə ki, əski əlifbada "Azərbaycan" kəlməsi səkkiz hərflə ifadə edilmişdir.

**Nəticə.**

Azərbaycan bayrağındakı ulduzdan memarlıqda da yetərincə istifadə olunur və səkkiz guşə - səkkiz türk xalqının rəmzi kimi mənalandırılır. Bir sözlə, bədii əsərlərdə bayrağı mövzu seçən sənətkarlarımız zaman-zaman sözü gedən məsələyə həmişə məxsusi diqqətlə yanaşmış, Dövlət Bayrağımızı böyük istəklə vəsf etmişlər. Bu, ilk növbədə, bayrağa hörmət və məhəbbətin əməli nəticəsidir. Bayrağın tərənnümünü verən sözlər leksik məhdudluq tanımır, həmçinin buxovlardan azad bir millətin müstəqillik ruhunu özündə ehtiva edir.

## ƏDƏBİYYAT

1. Cabbarlı C. Əsərləri, I cild. Bakı: Şərq-Qərb, 2005
2. Cavad Ə. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2005
3. "Kitabi-Dədə Qorqud" ensiklopediyası. I, II cildlər. Bakı: Yeni nəşrlər evi, 2000

**Rəyçi: fil.ü.f.d., dos. Səba Namazova**